**Müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclərin, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin normalarının müəyyən edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2006-cı il 15 dekabr tarixli 196-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 dekabr tarixli 501 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan digər məhsulların və vasitələrin gündəlik xərc norması 2 manat məbləğində müəyyən edilsin.

*2. Dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin gündəlik norması Xəzər dənizində üzən gəmilərin üzücü heyəti üçün 25 manatadək, Xəzər dənizindən kənarda üzən gəmilərin üzücü heyəti üçün 25 ABŞ dollarınadək məbləğdə müəyyən edilsin.*[1]

3. Bu qərar 2007-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 4 iyun 2007-ci il
89

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

1. 30 yanvar 2017-ci il tarixli **21** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 31 yanvar 2017-ci il, 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1, maddə 134**)
2. 5 oktyabr 2022-ci il tarixli **383** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 5 oktyabr 2022-ci il, "Xalq" qəzeti, 6 oktyabr 2022-ci il, 217, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 10, maddə 1212**)

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

---

[1] 30 yanvar 2017-ci il tarixli **21** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 31 yanvar 2017-ci il, 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 1, maddə 134**) ilə 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2. Dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin gündəlik norması 10 manatadək məbləğində müəyyən edilsin.~~

5 oktyabr 2022-ci il tarixli **383** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 5 oktyabr 2022-ci il, "Xalq" qəzeti, 6 oktyabr 2022-ci il, 217, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 10, maddə 1212**) ilə 2-ci hissədə hər iki halda "**15**" rəqəmləri "**25**" rəqəmləri ilə əvəz edilmişdir.